Bakı Dövlət Universitetinin baş müəllimi Əmirli İsrail Calal oğlu

**Şəhərlər və kəndlər qəbilə və tayfaların dağılmasına səbəb olur**

İlk qəbilə və tayfaların yaranması, insan toplumlarının meydana gəldiyi dövrə təsadüf edir. Qəbilə qan qohumlarının birliyi, tayfa isə paralel şəkildə mövcud olan eyni qandan olan qəbilələrin birləşməsindən və ya bölünməsindən yaranan birlik formasıdır. Eyni və müxtəlif soylu qəbilə və tayfaların birləşməsindən isə qəbilə və tayfa ittifaqları birliyi meydana gəlmişdir.

Dünya tarixşünaslığında mezolit dövründən başlayaraq digər canlıların təsərrüfat münasibətlərinə cəlb olunması, bununla bərabər ibtidai dəmyə əkinçiliyinin meydana gəlməsi qəbilə və tayfaların bir qisminin köçəri və yarımköçəri həyat tərzinə keçməsini şərtləndirmiş, digər qəbilə və tayfalar üçünsə oturaqlaşması üçün zəmin hazırlamışdır. Məhz bunun nəticəsində, paleolit dövrü də daxil olmaqla, mezolit dövründən başlayaraq qəbilə və tayfaların oturaqlaşma, köçəri və yarımköçəri həyat tərzində yerdəyişmə prosesləri eneolit dövrü də daxil olmaqla sonrakı dövrlərdə də davam etmişdir.

Sənətkarlığın inkişaf etməsi, dəmyə əkinçiliyi ilə yanaşı, toxa və xış əkinçiliyinin yaranması, metaldan və saxsıdan hazırlanan məhsulların meydana gəlməsi xüsusi mülkiyyətin inkişafı qəbilə və tayfaların qorunmasını labüd etmiş, bu dövrdən başlayaraq ərazisi, ordusu, atributları olan tayfa ittifaqları, dövlət qurumları və dövlətlər yaranmağa başlamışdır. Dövlətlərin yaranması ilə qəbilə və tayfa münasibətləri sıradan çıxmamış, həm quldarlıq, həm feodalizm, həm də kapitalizm dövründə mövcud olmuşdur. Məhz bunun nəticəsidir ki, orta əsrlər dövrü də daxil olmaqla XX əsrdə də yaranan dövlətlərin içərisində qəbilə və tayfa münasibətlərinə əsaslanan dövlətlər mövcud olmuşdur.

Hazırda dünya dövlətlərinin əksəriyyətində qəbilə və tayfa münasibətləri qalmaqdadır. XX əsrdə dünya ölkələrində pasportlaşma prosesi baş tutduqdan sonra, qəbilə və tayfaların mövcudluğu daha bariz surətdə meydana çıxdı. Bu amil

kəntlərdə qəbilə və tayfaların familyalarının- (family ingilis sözü olub mənası ailə deməkdir) eyni olması baxımından uzun müddət dağılmasının qarşısını almasına səbəb oldu.

Ancaq burada bir amil qaçılmaz hal oldu ki, qəbilə və tayfa nümayəndələrinin müxtəlif ərazilərdə yerləşməsi, tədricən bu ailə institunun aradan çıxmasına səbəb olmaqdadır. (Tarixdə mövcud olan sak, masaget, qıpçaq, səlcuqlar, səfəvilər, qacarlar kimi və digər tayfaların da dağılmasına kəntlər və şəhərlər səbəb olmuşdur) Buradan çıxarış edərək bir amili xüsusi qeyd etmək lazımdır ki, həm kəndlərdə, həm də şəhərlərdə bu gün mövcud olan qəbilə və tayfa münasibətləri daimi deyil bir neçə nəsili əhatə etməkdədir. Ancaq kəntlərdə qəbilə və tayfalar kompakt yaşadıqda dağılmağa məruz qalmırlar.Oturaq, köçəri və yarımköçəri tayfalarda bu amil icma və feodalizm dövründə, hətda sonrakı dövrlərdə də bu şəkildə mövcud olmuşdur.

Qəbilə və tayfaların dağılmasına səbəb olan digər bir amil isə miqrasiya problemlərinin mövcud olmasıdır. Kütləvi miqrasiyalar nəticəsində müxtəlif regionlara dağılan qəbilə və tayfa üzvləri zaman keçdikcə aralı düşmüş bunun nəticəsində qəbilə və tayfaların kompakt şəkildə mövcud olmaması onların süqutuna səbəb olmuşdur.

Misal üçün ermənilərin təcavüzü nəticəsində Qərbi Azərbaycandan ("Ermənistan") və Dağlıq Qarabağdan qaçqın və köçkün düşmüş azərbaycanlılar, o cümlədən Özbəkistandan köçürülən Axıska türkləri bu problemlə üzləşmiş, bunun nəticəsində mövcud olan qan qohumları qəbilə və tayfalar dağılmağa məruz qalmışdır.

Hazırda da kəndlərdə və şəhərlərdə, qəbilə və tayfaların birgə yaşamamsı bu ailə institunun dağılmasına, bununla bərabər soyadlarını saxlasalar da, yeni qəbilə və tayfaların da yaranmasına səbəb olmaqdadır.